# "MERANO-BAKU "
# QAPALI SƏHMDAR CƏMIYYƏTININ 31 DEKABR 2022-Cİ IL TARIXINƏ MALİYYƏ HESABATLARI VƏ "ECONOMİC CHA" MMC-NIN AUDİT RƏYİ

**16.01.2023 – cü il**

***Azərbaycan Respublikasının Auditorlar Palatasının***

***"ECONOMİC-CHA"Məhdud Məhsuliyyətli Cəmiyyətinin***

***Direktoru Xanım Cəfərova Sevda Teymur qızına***

***Yazıb Sizdən xahiş edirik ki, 2022-ci il maliyyə hesabatlarının yekunu üçün audit yoxlaması aparasınız.***

***Auditə tələb olunan hüquqi və ilkin sənədlərin surətləri Sizə təqdim ediləcəkdir. Həmin sənədlərin düzgünlüyünə müəssisə cavabdehlik daşıyır.***

***Audit Xidmətinin dəyəri qarşılıqlı razılaşma yolu ilə ödəniləcəkdir.***

***"MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin***

***Rəhbəri*** ***Quliyev Bəxtiyar Rasim oğlu***

Azərbaycan Respublikası
QAPALI SƏHMDAR CƏMİYYƏTİ
MERANO-BAKU
CLOSED JOINT-STOCK COMPANY
Azerbaijan Republic

***"MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyəti***

***31 dekabr 2022-ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə rəhbərliyin məsuliyyəti haqqında hesabat***

***Rəhbərlik Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə balansı və mənfəət və zərərlərini düzgün əks etdirən hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.***

***Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik aşağıdakılara cavabdehdir:***

- ***Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl sürətdə tətbiqinə;***

- ***Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;***

- ***Maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların MHBS-in tələblərinə uyğunluğuna; və***

- ***Cəmiyyətin təxmin edilə bilən dövr ərzində öz fəaliyyətini davam etdirməsi mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.***

***Həmiçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:***

- ***Cəmiyyətdə effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;***

- ***Cəmiyyətin maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olduğuna təminat verən mühasibat yazılışlarının hər zaman dəqiq və düzgün saxlanılmasına;***

- ***Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanuvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;***

- ***Cəmiyyətin aktivlərinin mühafizə edilməsi üçün mümkün tədbirlərin görülməsinə;***

- ***Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.***

***31 dekabr 2022-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq olunmuşdur.***

***QSC-nin rəhbəri***

Azərbaycan Respublikası QAPALI SƏHMDAR CƏMİYYƏTİ MERANO-BAKU CLOSED JOINT-STOCK COMPANY Azerbaijan Republic

***MƏKTUB – ÖHDƏLİK***

***16.01.2023 – cü il***

***"MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin***
***Rəhbəri Cənab Quliyev Bəxtiyar Rasim oğlu***

***Audit aparılmasının şərtləri***

***Sizin "MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin mühasibat (maliyyə) hesabatlarının auditinin aparılması haqqında təklifinizi qəbul edərək bu məktub-öhdəliklə təsdiq edirəm. Audit standartlarına və digər hüquqi-normativ aktlara əsasən 31 dekabr 2022 – ci il tarixinə bitən il üzrə balans və gəlirlər-xərclər haqqında hesabatları ilkin sənədlər üzrə seçmə üsulu ilə yoxlanacaqdır (təqdim olunan sənədlərə əsasən).***

***Mənim tərəfimdən audit Azərbaycan Respublikasının qanunvericilik aktlarına və Beynəlxalq Audit Standartlarına (mühasibat hesabatlarının tərtib edilməsi qaydasını və auditorun fəaliyyətini tənzimləyən qanunvericilik və normativ aktlarına) əsasən aparılacaqdır.***

***Auditin məqsədi 2022 – ci il "MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin mühasibat (maliyyə) hesabatlarının dürüstlüyü haqqında auditorun fikrini ifadə edən rəy verməkdən ibarətdir.***

***Mən öz nəticələrimi əsaslandırmaq üçün sizin təşkilatın işçilərinin köməyinə ümid edərək, daxili nəzarətin vəziyyətinin, uçot məlumatlarının yetərliyinin və dürüstlüyünün yoxlanılmasının bir sıra prosedurlarından və testlərindən istifadə edəcəyəm.***

***Auditin testlərinin seçilmə və digər özünəməxsus xüsusiyyətlərini, auditlə əhatə olunacaq sənədlərin, həmçinin böyük olmasını nəzərə alaraq, ayrı-ayrı qeyri-müəyyənlik və səhvlərin aşkar edilməməsi riski mövcuddur. Mən hər şeyi edəcəyəm ki, həmin riski minimuma endirmək mümkün olsun, lakin nəticənin tam dəqiqliyinə (auditlə qəbul edilmiş ümumi qaydaya əsasən) zəmanət verə bilmərəm. Siz mühasibat uçotu və hesabatlarının qəsdən təhrif edilməsi faktlarının aşkar edilməsi haqqında mənim yazılı hesabatımı məlumatlandıracaqsınız.***

***Mən auditin aparılmasına dair müqavilənin şərtlərinə və "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən göstərdiyim xidmətlərə görə məsuliyyət daşıyacam. Mən Sizin təşkilatın kommersiya sirrinə riayət edilməsi üzrə öhdəliyi öz üzərimə götürürəm.***

*Uçot siyasətinin seçilməsinə və tətbiq edilməsinə, daxili nəzarət və mühasibat yazılarının uyğunluğunun təmin olunmasına, ilkin uçot məlumatlarının düzgün əks etdirilməməsi də daxil edilməklə, mühasibat hesabatlarının tərtib edilməsinə görə "MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin icra orqanının məsuliyyətini Sizin nəzərinizə çatdırıram. Mən Sizin, "MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyindən xahiş edirəm ki, audit üçün təqdim edilən məlumatların tam və dürüst olmasını rəsmi təsdiq edəsiniz.*

*Sizin işçilərlə hərtərəfli əməkdaşlığa ümidvaram ki, auditin tam aparılması üçün zəruri olan mühasibat sənədləri və digər məlumatlar mənim sərəncamıma təqdim olunacaqdır.*

*Ümid edirəm ki, Sizin mühasibat hesabatlarınızın dürüstlüyü haqqında mənim fikrimi dəyişmək məqsədilə hər hansı bir formada mənə heç bir təyziq göstərilməyəcək. Qəbul edilmiş audit normalarına əsasən həmin şərtin pozulması auditin aparılmasına dair müqavilənin vaxtından əvvəl dayandırılması üçün əsasdır.*

*Göstərilən xidmətlərin dəyərini Sizinlə bağladığım müqavilədə göstəriləcək razılaşdırılmış məbləğ təşkil edəcəkdir.*

*Ayrı-ayrı işlərin dəyəri auditorların tələb olunan ixtisas səviyyəsinə və iş təcrübəsinə, məsuliyyət dərəcəsinə müvafiq olaraq dəyişə bilər. Hesablaşmanın həyata keçirilməsi qaydası və müddəti auditin aparılmasına dair müqavilə ilə müəyyən ediləcəkdir.*

*Xahiş edirəm ki, Sizə təqdim olunan mühasibat hesabatlarının dürüstlüyünün auditinə razılıq haqqında məktub-öhdəliyin sürətini imza edib, onun məzmununa dair irad və təkliflərinizi bizə göndərəsiniz.*

*"ECANOMIC CHA" Məhdud Məhsuliyyətli Cəmiyyətinin Direktoru*

| | | |
|---|---|---|
| *(imza)* | *Cəfərova Sevda Teymur qızı* (soyadı,adı,atasının adı) | 16.01.2023 *(tarix)* |

*Mühasibat hesabatlarının dürüstlüyünün auditor yoxlamasının şərtləri ilə razıyam:*

*Təsərrüfat subyektinin icra orqanının rəhbəri*

| | | |
|---|---|---|
| *(imza)* | *Quliyev Bəxtiyar Rasim oğlu* (soyadı,adı,atasının adı) | *(tarix)* |

**MÜQAVİLƏ** **AGREEMENT**

**SERİYA CHA №01** **SERİES CHA №01**

# AUDİTOR XİDMƏTİ GÖSTƏRİLMƏSİ BARƏDƏ
# ON THE AUDİT SERVICE

Bakı şəhəri "16 " yanvar 2023-cü il

Bundan sonra "İcraçı" adlandırılacaq

***"ECONOMİC –CHA" Məhdud Məhsuliyyətli Cəmiyyəti***

***Direktoru -Cəfərova Sevda Teymur qızı :***

(auditorun soyadı, adı, atasının adı və ya auditor təşkilatının adı )

***09 yanvar 2020-ci il tarixli AT/206 saylı İCAZƏ ( lisenziyaya) əsasən :***

***Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən***

(lisenziyanın kim tərəfindən verilməsi, verilmə tarixi, №-si)

bir tərəfdən və bundan sonra "Sifarişçi" adlandırılacaq

***"MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin***

(təsərrüfat subyektinin adı və

**Rəhbər: Quliyev Bəxtiyar Rasim oğlu**

müqavilə bağlayanın vəzifəsi, soyadı, adı, atasının adı)

ikinci tərəfdən auditor xidməti göstərilməsi barədə aşağıdakı müqaviləni bağladılar:*

### *I. Müqavilənin məzmunu və tərəflərin cavabdehliyi*

1.1. Sifarişçi tapşırır, icraçı isə aşağıdakı auditor xidmətlərinin göstərilməsini öz öhdəsinə götürür:

**"MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci il üzrə Maliyyə Hesabatlarının auditi və təsdiqi.**

(auditor xidmətinin növü)

1.2. Göstərilmiş auditor xidmətlərinin nəticəsini "İcraçı":

**Hesabat,Rəylə**

(rəylə, aktla/ hesabatla və s.)

rəsmiləşdirir.

1.3. "Sifarişçi" göstərilmiş auditor xidmətlərinin müqabilində bu müqavilədə nəzərdə tutuluş məbləği ödəyir.

### *II. Tərəflərin hüquq və vəzifələri*

2.1. İcraçının hüquq və vəzifələri:

- bağlanmış müqavilənin şərtinə uyğun olaraq göstəriləcək xidmətin forma və metodlarını sərbəst müəyyən etmək;
- sifarişçinin rəhbərliyindən və işçilərindən yazılı izahat almaq;
- xidmətin göstərilməsi ilə əlaqədar müqavilə əsasında başqa auditorları ( ekspert və ya mütəxəssiləri ) cəlb etmək;

* Müqavilə auditor təşkilatı ilə bağlandıqda, onun icrasının həyata keçirəcək auditorun soyadı, adı, atasının adı, lisenziyanın kim tərəfindən verilməsi, verilmə tarixi, №-si göstərilməlidir.

- göstəriləcək xidmətin məzmunu ( şərti ) ilə əlaqədar olaraq lazımi sənədlərin təqdim edilməməsi hallarında xidmət göstərilməsindən imtina etmək;
- auditin aparılmasında qanunvericiliyin tələblərinə riayət etmək;
- auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, çatışmazıqlar və nöqsanlar barədə sifarişçinn rəhbərliyinə məlumat vermək;
- xidmətin göstərilməsi ilə əlaqədar əldə edilən məlumatları ( məhkəmə orqanlarının tələb etdiyi hallar istisna olmaqla ) məxfi saxlamaq;
- alınmış və ya tərtib edilmiş sənədlərin qorunub saxlanmasını təmin etmək.

______________________________________________

______________________________________________

______________________________________________

2.2. Sifarişçinin hüquq və vəzifələri:

- xidmətin göstərilməsi ilə bağlı qeyri-qanuni hərəkətləri və meydana çıxan əmlak xarakterli mübahisələrlə əlaqədar Auditorlar Palatasına və məhkəməyə müraciət etmək;
- göstərilən xidmətlərlə bağlı qanunvericiliyin tələbləri, tərəflərin hüquq və vəzifələri, habelə auditorun rəsmiləşdirilmiş olduğu sənədlərdə əks edilmiş irad və nəticələr üçün əsas olan normativ aktlar barəsində ətraflı məlumat almaq;
- xidmət göstərilərkən aşkar edilmiş pozuntular və nöqsanlar barədə məlumat almaq;
- xidmət göstərilərkən auditora təqdim olunmuş sənəd və məlumatların qorunması və məxfi saxlanmasını tələb etmək;
- müqavilədə nəzərdə tutulan xidmətin göstərilməsi üçün zəruri olan bütün sənədləri, registrləri və hesabatları auditora vaxtında təqdim etmək;
- Auditorun sorğusuna dair yazılı və şifahi izahatlar vermək.

______________________________________________

______________________________________________

______________________________________________

### *III. İşlərin dəyəri və hesablaşma qaydaları*

3.1. Tərəflərin razılığına əsasən bu müqavilədə nəzərdə tutulan auditor xidmətinin dəyəri aşağıdakı məbləğdə müəyyən edildi:
- göstərilən xidmətin dəyəri ______________5000.00__________ manat
- əlavə dəyər vergisi ______________________________ manat
- auditorun ezamiyyə xərcləri ______________________________ manat

______________________________________________

______________________________________________

Cəmi ödənilməlidir: beş min manat

3.2. Sifarişçi bu müqavilədə nəzərdə tutulan məbləği aşağıdakı qaydada ödəməlidir:

_______________________________________________________________

***Köçürmə yolu ilə***

_______________________________________________________________

_______________________________________________________________

3.3. Sifarişçi tərəfindən əsassız olaraq müqavilə və yaxud müqavilənin şərtləri pozularsa, ödənilmiş məbləğ geri qaytarılmır.

3.4. Sifarişçi göstərilən xidmətin vaxtında ödənilməmiş dəyərinin gecikdirilmiş hər günü üçün _____05____ % həcmində penya ödəyir.

### *IV. İşlərin təhvili və qəbulu qaydası*

4.1. Müqavilə üzrə işlər başa çatdırıldıqdan sonra qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş sənədlərin Sifarişçiyə təqdim edilməsi təhvil-qəbul aktı vasitəsilə həyata keçirilir.

4.2. Təhvil-qəbul aktını alan Sifarişçi ən çoxu ___30______ gün müddətində yoxlama aktı ilə tanış olmalı və heç bir etirazı olmazsa, imza edib İcraçıya qaytarmalıdır.

4.3. Sifarişçinin əsaslandırılmış etirazı olarsa, bu barədə hər iki tərəfin imzası ilə akt tərtib edilir və orada başa çatdırılacaq işlərin siyahısı və icra müddəti göstərilir.

4.4. Başa çatdırılacaq işlər vaxtından əvvəl yerinə yetirilərsə, Sifarişçi onu vaxtından əvvəl qəbul edir və dəyərinin razılaşdırılmış qiymətlə ödəyir.

### *V. Tərəflərin məsuliyyəti və öhdəliyi*

5.1. Sifarişçi İcraçıya xidmət göstərilməsi üçün təqdim etdiyi bütün sənədlərin, o cümlədən yazılı və şifahi izahatların düzgünlüyünə məsuliyyət daşıyır.

5.2. Sifarişçi və İcraçı öhdəliyi tam və ya qismən yerinə yetirmədikdə qüvvədə olan qanunvericiliyə və bağlanmış müqavilənin şərtlərinə görə əmlak məsuliyyəti daşıyır.

5.3. İcraçı tərəfindən xidmət vaxtında göstərilməzsə, bağlanmış müqavilənin şərtlərinə görə, İcraçı gecikdirilən hər gün üçün xidmət haqqının __05______%-i həcmində cərimə ödəyir.

5.4. Bu müqavilənin 8.3 bəndində göstərilən şərtlər pozularaq yerinə yetirilmiş iş Sifarişçi tərəfindən vaxtında qəbul edilməzsə, gecikdirilən hər gün üçün Sifarişçi xidmət haqqının __________%-i həcmində cərimə ödəyir.

5.5. _______________________________________________________

_______________________________________________________________

_______________________________________________________________

### *VI. Məxfilik*

6.1. Tərəflər bağlanmış müqavilənin mövcudluğu, məzmunu və müqavilənin bağlanması üçün zəruri olan sənədləri məxfi saxlamaqla, tərəf müqabilin rəsmi razılığı olmadan üçüncü tərəfə heç bir məlumat vermir.

İcraçı aşkar edilən fakt və məlumatlardan Sifarişçinin yazılı razılığı olmadan hər hansı bir məqsəd üçün istifadə edə bilməz.

6.2. İcraçı onun təqsiri üzündən olmayan səbəblərə görə yayılmış məlumatlara görə və ümumi xarakterli məlumatların yayılması üçün məsuliyyət daşımır.

### *VII. Mübahisələrin həlli*

7.1. Bağlanmış müqavilə şərtləri üzrə tərəflər arasında hər hansı bir mübahisə və ya fikir ayrılığı danışıqlar vasitəsi ilə həll edilməzsə, qüvvədə olan qanunvericiliyə uyğun həll edilir.

### *VIII. Müqavilənin vaxtından əvvəl dayandırılması*

8.1. Tərəflərdən hər hansı biri aşağıda göstərilən səbəblər olarsa rəsmi məktub vasitəsilə müqavilənin icrasını dayandıra bilər:

a) ödəmə qabiliyyəti olmazsa, imkansız, ləğv edilmə və ya yenidən təşkil etmə hallarında;

b) işgüzar fəaliyyətin dayanması və ya ona maneəçilik təhlükəsi olduqda;

8.2. Tərəflərdən biri müqavilə şərtlərinin pozarsa və ya buraxılmış nöqsanları ikinci tərəfin tələbi ilə 3 gün ərzində aradan qaldıra bilməzsə, ikinci tərəf rəsmi məktubla müqavilənin icrasını dayandıra bilər.

8.3. Əgər bağlanmış müqavilə 8.1 və 8.2-ci bəndlərə əsasən pozularsa, göstərilmiş faktiki xidmətin dəyəri Sifarişçi tərəfindən yerinə yetirilmiş işin həcminə dair tərtib edilmiş akta əsasən ödənilir.

### *IX. Fors-major şəraiti*

9.1. Fors-major şəraitində müqavilə üzrə götürülən öhdəliyin yerinə yetirilməsi qeyri-mümkün ola bilər.

9.2. Fors-major şəraitinin mövcud olması ilə əlaqədar tərəflərdən biri ekstremal şəraitdədirsə və müqavilə öhdəliyini vaxtında yerinə yetirə bilmirsə, fors-major şəraiti qurtaranadək öhdəliyin yerinə yetirilməsindən o halda azad edilir ki, ikinci tərəfə dərhal fors-major şəraitinin mövcudluğuna dair rəsmi məktub göndərmiş olsun.

### *X. Digər şərtlər*

10.1. İcraçı müqavilə öhdəliyini yerinə yetirilmək məqsədilə lazım olan auditorları cəlb edir.

10.2. Müqavilədə yerinə yetirilən işin dəyəri yalnız bu müqavilə üçün olmaqla, gələcəkdə bağlanılacaq eyni adlı ikinci müqaviləyə şamil edilmir və rəqabət üçün istifadə edilə bilməz.

### *XI. Müqavilənin fəaliyyət müddəti və tərəflərin hüquqi ünvanı*

11.1. Müqavilənin fəaliyyət müddəti:

Başlayıb

Qurtarıb

11.2. Tərəflərin hüquqi ünvanı və bank rekvizitləri:

İcraçı: ***"ECONOMİC-CHA" MMC Direktor Cəfərova Sevda Teymur qızı***

***Bakı şəhəri, F.X.Xoyski küç.98a VÖEN: 7300863331***

***Kapital Bank ASC Gənclik Mall VÖEN: 9900003611***

***M/h AZ37NABZ01350100000000001944***

***Kod:201025 S.W.I.F.T: AIIBAZ2X h/h: AZ64AIIB40060019440803545142***

Sirafişçi: ______________________________

**"MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyəti**

**3901037901 VÖEN.**

______________________________

Bu müqavilə 2 nüsxədən ibarət imzalanmışdır.

İcraçı tərəfindən: / M.Y. /

Sirafişçi tərəfindən: / M.Y. /

**Azərbaycan Respublikası Auditorlar Palatası**
**"ECONOMİC-CHA"**
**Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Chamber of Audotirs of Azerbaijan Respublik**
**"ECONOMİC-CHA"**
**Limited Liability Company**

Bakı şəhəri, F.X.Xoyski küç., 98A
Tel.: (994 12) 465 67 98, (994 51) 700 71 55

Baku c., F.X.Xoyski, 98A
Tel.: (994 12) 465 67 98, (994 51) 700 71 55

## *" MERANO-BAKU " Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə*
## *Müsbət Rəy*

***Biz, "MERANO-BAKU" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.***

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

***Rəy üçün əsaslar***

***Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun apardıq. Bu standartlar üzrə mənim məsuliyyətlərimə əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyim audit sübutları rəyimzi əsaslandırmaq üçün yetərli və münasibdir.***

***Maliyyə hesabatlarına görərə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti***

***Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.***

***Maliyyə hesabatlarını hazırladıqda , rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik***

*Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.*

*İdarə etməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.*

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

*Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlərin nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimində daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.*

**31 yanvar 2023 – cü il**

**Bakı, Azərbaycan Respublikası** **F. X. Xoyski 98a**
***E-mail :iqtisadci.audit@gmail.com*** **Tel: (051) 700 71 55**

**(25.08.2022 – ci il tarixli SA/281 saylı İCAZƏ )**
**"ECONOMİK CHA " MMC (İCAZƏ-AT/206 09 yanvar 2020-ci il)**
**Direktor:** **Cəfərova Sevda Teymur qızı**

**Bakı – Azərbaycan Respublikası**

**31 Dekabr 2022 – ci il tarixdə bitən il üzrə**

**Auditor Rəyi və Maliyyə Hesabatları**

**MÜNDƏRİCAT**

**Səhifə**


| | |
|---|---|
| **Rəhbərliyin Hesabatı** | **2–4** |
| **Maliyyə vəziyyəti haqqında Hesabat** | **5** |
| **Məcmu gəlirlər haqqında Hesabat** | **6** |
| **Kapitalda dəyişikliklər haqqında Hesabat** | **7** |
| **Pul vəsaitlərinin hərəkəti haqqında Hesabat** | **8** |
| **Maliyyə hesabatlarina dair Qeydlər** | **9–17** |


**Bakı – Azərbaycan Respublikası**

**Rəhbərliyin Hesabatı**

***Rəhbərlik 31 Dekabr 2021 – ci il tarixdə bitən il üzrə öz hesabatını və audit olunmuş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.***

**Risklərin idarə olunması və daxili nəzarət sistemi:**

Cəmiyyət davamlılığa, məşğulluğa və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsinin strukturu riskləri müəyyən edir, qiymətləndirir, idarə edir və risklər haqqında ardıcıl və etibarlı əsasda hesabat verir. Əsas risklərə kredit, bazar (likvidlik, faiz dərəcəsi və xarici valyuta məzənnələri) və əməliyyat riskləri daxildir.

Rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Yuxarıdakıları nəzərə alaraq, Cəmiyyət idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

**Fəaliyyətin fasiləsizliyi:**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən menecment Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyətini qiymətləndirilmişdir. Menecment Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıracaq hər hansı sübutla qarşılaşmamışdır.

**Kreditor borclarının ödənilməsi siyasəti:**

Cəmiyyət təchizatçılarla razılaşdırılmış müddət və şərtlərlə borcun ödənilməsi siyasətini həyata keçirir. Siyasətin məqsədi standard ödəniş sisteminin tətbiq edilməsidir.

**Balans tarixindən sonrakı hadisələr:**

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Cəmiyyətin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və ya hadisə baş verməmişdir.

**Torpaq, tikili və avadanlıqlar:**

Torpaq, tikili və avadanlıqlar üzrə hərəkət maliyyə hesabatlarında göstərilmişdir.

**Təsisçi:**

Nizamnamə kapitalının dəyəri 2010,00 (iki min on ) manat məbləğində formalaşmış və təsdiq edilmişdir.

31 Dekabr 2022 – ci il tarixdə bitən il üzrə Cəmiyyətin nizamnamə kapitalında Təsisçinin payı aşağıdakı kimidir.

Əsgərov Namiq Xanış oğlu -100 %

**Rəhbərliyin məsuliyyəti**

Azərbaycan Respublikası Mülki qanunvericiliyi Rəhbərlikdən hər bir maliyyə ili üçün Cəmiyyətin ümumi vəziyyətini və maliyyə ili üçün mənfəət və zərərini düzgün və ədalətli şəkildə təqdim etmək imkanı verən maliyyə hesabatlarını hazırlamağı tələb edir.

Nəzərdən keçirilən il üzrə audit olunmuş maliyyə hesabatları dövlət qanunlarına uyğun olaraq hesablanmışdır. Rəhbərlik təsdiq edir ki,Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman lazımi dəqiqliklə açıqlaya bilən və onların maliyyə hesabatlarının müvafiq qanunvericiliyin tələblərinə uyğun olmasına təmin edən uyğun və adekvat mühasibat müxabirləşməsinin doğruluğuna əhəmiyyətli dərəcədə diqqət yetirilib. Rəhbərlik həmçinin təsdiq edir ki,maliyyə hesabatlarının ədalətli şəkildə əks etdirməsi və Cəmiyyətin maliyyə vəziyyətini və onun əməliyyatlarının nəticələrini əsaslandırılmış şəkildə təqdim edilməsi məqsədilə uyğun uçot siyasəti seçilmiş və ardıcıllıqla tətbiq edilmişdir.

**Rəhbər – Quliyev Bəxtiyar Rasim oğlu**

**" MERANO-BAKU " Qapalı Səhmdar Cəmiyyəti**

Azərbaycan Respublikası QAPALI SƏHMDAR CƏMİYYƏTİ MERANO-BAKU CLOSED JOINT-STOCK COMPANY Azerbaijan Republic

**" MERANO-BAKU " Qapalı Səhmdar Cəmiyyəti**
**Maliyyə vəziyyəti haqqında Hesabat, 31 Dekabr 2022 – ci il tarixinə**

*(Azərbaycan manatı ilə)*

| | 2022 | 2021 |
|---|---|---|
| **Aktivlər** | | |
| **Uzunmüddtli aktivlər** | | |
| Qeyri-maddi aktivlər | | |
| Torpaq,tikili,avadanlıqlar | 273968,07 | 319437,04 |
| Torpaq, tikili, avada. bağlı məs.kapitallaşması | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| Sair uzunmüddətli aktivlər | | |
| **Cəmi uzunmüddətli aktivlər** | **273968,07** | **319437,04** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 8376076,80 | 5138655,69 |
| Debitor borcları | 3505137,23 | 2288115,48 |
| Sair qısa müddətli aktivlər | 2713087,19 | 641391,60 |
| Pul vəsaitləri və onun ekvialentləri | 1621209,28 | 1922470,95 |
| **Cəmi qısamüddətli aktivlər** | **16215510,50** | **9990633,72** |
| **Cəmi aktivlər** | **16489478,57** | **10310070,76** |
| **Kapital və öhdəliklər** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 2010,00 | 10,00 |
| Kapital ehtiyatları | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 3150079,96 | 1796424,66 |
| Xalis mənfəət | 3029190,15 | 1822467,67 |
| **Cəmi capital** | **6181280,11** | **3618902,33** |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | | |
| Sair uzunmüddətli öhdəliklər | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Bank kreditləri | 5993194,11 | 4016566,50 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 743620,58 | 644954,50 |
| Qısamüddətli kreditor borcları | 1863330,06 | 114742,88 |
| Sair qısamüddətli öhdəliklər | 1708053,71 | 1914904,55 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **10308198,46** | **6691168,43** |
| **Cəmi öhdəliklər** | **10308198,46** | **6691168,43** |
| **Cəmi capital və öhdəliklər** | **16489478,57** | **10310070,76** |

**Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir**

***" MERANO-BAKU " QSC-nin***
***Rəhbər:***

***Baş mühasib:***

__________ ***2023 – cü il***

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti MERANO-BAKU Closed Joint-Stock Company Azerbaijan Republic

**" MERANO-BAKU " Qapalı Səhmdar Cəmiyyəti**
**Məcmu gəlirlər haqqında hesabat, 31 Dekabr 2022 – ci il tarixinə**

*(Azərbaycan manatı ilə)*

| | 2022 |
|---|---|
| Əsas əməliyyat gəliri | 20989319,93 |
| ***Ümumi mənfəət*** | **20989319,93** |
| Digər əməliyyat gəliri (zərəri) | -16297887,17 |
| İnzibati xərclər | |
| Digər xərcləri | -526570,38 |
| Amortizasiya xərcləri | -114003,37 |
| **Vergiqoymadan əvvəl mənfəət** | **3786487,69** |
| **Mənfəət vergisi** | **-757297,54** |
| **Hesabat dövründə xalis mənfəət** | **3029190,15** |

***" MERANO-BAKU " QSC-nin Rəhbər:***

***Baş mühasib:***

***__________2023 – cü il***

Azərbaycan Respublikası QAPALI SƏHMDAR CƏMİYYƏTİ MERANO-BAKU CLOSED JOINT-STOCK COMPANY Azerbaijan Republic

**" MERANO-BAKU " Qapalı Səhmdar Cəmiyyəti**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI 31 dekabr 2022-ci il tarixdə bitmiş il üzrə**

*Azərbaycan Manatı ilə*

| | Nizamnamə Kapitalı | Xalis Mənfəət | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **31.12.2021-ci li tarixinə kapitalın qalığı** | **10,00** | **1822467,67** | **1796424,66** | **3618902,33** |
| Kapital qoyuluşu | 2000,00 | 3029190,15 | 1822467,67 | 4853657,82 |
| Hesablanmış vergilər | | | | |
| Kapitalın istifadəsi | | -1822467,67 | -468812,37 | -2291280,04 |
| **31.12.2022-ci ili tarixinə kapitalın qalığı** | **2010,00** | **3029190,15** | **3150079,96** | **6181280,11** |

***" MERANO-BAKU " QSC-nin Rəhbər:***

***Baş mühasib:***

***____________2023 – cü il***



**" MERANO-BAKU " QSC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI - BİRBAŞA METODLA**

| | Qeyd | 2022 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | | **3029190,15** |
| Mənfəət vergisi üzrə xərclər | | 757297,54 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | |
| • Əsas vəsaitlərin amortizasiyası | | 114003,37 |
| • Qeyri-maddi aktivlərin amortizasiyası | | |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| • Mal-material ehtiyatları üzrə artım/azalma | | -3237421,11 |
| • Əməliyyat debitor borclarında artım/azalma | | -1217021,75 |
| • Əməliyyat kreditor borclarında artım/azalma | | -3617030,03 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Əsas vəsaitlərin xaricolması üzrə qalıq dəyəri | | |
| Əsas vəsaitlərin alınmasına görə ödənişlər | | |
| Kapital qoyuluşu | | |
| Nizamnamə kapitalına daxilolma | | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | |
| **Maliyyə fəaliyyəti nəticəsində pul vəsaitlərinin hərəkəti** | | |
| Təsisçidən daxilolmalar | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti | | |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | | **-301261,67** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | | **1922470,95** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | | **1621209,28** |
| **İl ərzində artım (azalma)** | | **-301261,67** |

***" MERANO-BAKU " QSC-nin Rəhbər:***

***Baş mühasib:***

***____________2023 – cü il***

Azərbaycan Respublikası QAPALI SƏHMDAR CƏMİYYƏTİ MERANO-BAKU CLOSED JOINT-STOCK COMPANY Azerbaijan Republic

***Hüquqi vəziyyət və biznes fəaliyyəti***

***1. 1. " MERANO-BAKU " QSC-nin 13.01.2016-ci il tarixdə Azərbaycan Respublikası 8 saylı Ərazi Vergilər idarəsində dövlət qeydiyyatına alınmışdır və 3901037901 saylı vöen verilmişdir. "MERANO-BAKU " QSC təkrarən 21.01.2022-ci ildə dövlət qeydiyyatına alınmışdır və 2208020018160200 saylı çıxarış verilmişdir.***

***1. 3. " MERANO-BAKU " QSC-nin hüquqi ünvanı aşağıdakı kimidir:***
***Azərbaycan Respublikası, AZ1006, Beyləqan rayonu, Beyləqan şəhəri, Babək , ev 10***

***2. Səhmdar kapitalı***

***Nizamnamə kapitalının dəyəri 2010.00 manat məbləğində formalaşmış və təsdiq edilmişdir.***

***31 Dekabr 2022-ci il tarixdə bitən il üzrə Cəmiyyətin nizamnamə kapitalında Təsisçinin payı aşağıdakı kimidir.***

***Əsgərov Namiq Xanış oğlu- 100%.***

**3.Mühüm uçot siyasətlərinin xülasəsi**

**Hazırlanmanın əsasları:**

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır; maliyyə hesabatları yeni Azərbaycan manatı ilə (AZN) təqdim edilmişdir.

**Uyğunluğun təsdiqi**

Cəmiyyətin maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq hazırlanmışdır.

**a) Mühüm uçot qiymətləndirmələri, ehtimalları və fərziyyələri**

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən hesabat tarixinə hesabatda əks olunmuş gəlirlərə, xərclərə,aktivlər və öhdəliklərə və şərti öhdəliklərin açıqlanmasına təsir edən qiymətləndirmələr, ehtimallar və fərziyyələri formalaşdırmağı tələb edir. Lakin bu qiymətləndirmələr və ehtimalların qeyri-dəqiqliyi gələcəkdə aktiv və ya öhdəliklərin balans dəyərində əhəmiyyətli düzəlişlər tələb edə biləcək nəticələrə gətirib çıxara bilər.

***Qiymətləndirmələr***

Cəmiyyətin uçot siyasətlərinin tətbiqi prosesində rəhbərlik maliyyə hesablarında tanınmış məbləğlərə çox əhəmiyyətli təsiri olan aşağıdakı qiymətlədirmələri həyata keçirmişdir.

***Əməliyyat gəliri***

Rəhbərlik belə hesab edir ki,gəlirin tanınması üçün əsas amil BMUS 18-də göstərilmişdir: Gəlir əməliyyatla bağlı iqtisadi səmərənin daxil olması ehtimal olunduqda tanınır. Müştəri tərəfindən öhdəlik qəbul edilərsə,iqtisadi səmərə artıq ötürülmüşdür və belə şəraitdə gəlirin tanınması mümkündür.

***Ehtimal və fərziyyələr***

Növbəti maliyyə ili çərçivəsində,balans hesabatı tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli dəyişikliyə gətirib çıxara biləcək, gələcəyi əhatə edən və ehtimallardakı qeyri-müəyyənliyin əhəmiyyətli mənbəyini təşkil edən əsas fərziyyələr aşağıdakılardır:

***Torpaq,tikili və adanlıqlar***

Torpaq,tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır.

***Şübhəli borclar üzrə ehtiyatlar***

Şübhəli borclar üzrə ehtiyatlar debitor borclarını onların geri qaytarılmaması hallarının nəzərə alınması ilə çox göstərilməsindən (şişirdilməməsindən)əmin olmaq üçün bir sıra amillərə əsaslanaraq müəyyən edilir. Ümüdsüz borclar üzrə ehtiyatlar bütün müştərilər üzrə müxtəlif amillər əsasında yaradılır. Bu amillərə debitor borclarının ümumi keyfiyyəti və onların müddətlər üzrə bölgüsü və müştərinin maliyyə vəziyyətinin kredit cəhətdən qiymətləndirilməsi daxildir. Həmçinin, şirkət müştərinin özünün öhdəliklərini ödəmə qabiliyyətinin olmamasını müəyyən edərsə, məsələn, müştərinin əməliyyat nəticələrində və maliyyə vəziyyətində pisləşmə müşahidə olunarsa, bu zaman həmin müşahidələr üzrə xüsusi ehtiyatlar yaradılır.

**b) Ehtiyatlar**

Ehtiyatlar ilkin dəyəri və mümkün xalis satış dəyərindən daha kiçik olan dəyərlə FİFO metodundan istifadə etməklə uçota alınır. Ehtiyyatların ilkin dəyərinə onların alınması, emal xərcləri və ehtiyatların mövcud yerə və vəziyyətə gətirilməsi üçün çəkilən digər xərclər daxildir. Xalis satış dəyəri nəzərdə tutulan satış qiymətindən işin tamamlanmasına ehtimal edilən xərcləri və satışı həyata keçirmək üçün zəruri xərcləri çıxmaqla müəyyən olunur.

**c) Torpaq,tikili və avadanlıqlar**

Torpaq,tikili və avadanlıqlar ilkin dəyərlə,yığılmış amortizasiya və müəyyən olunmuş qiymətdəndüşmə üzrə zərərlər çıxılmaqla uçota alınır. İlkin dəyərə alış qiyməti,rüsumlar,tariflər və onların müəssisə rəhbərliyinin istədiyi vəziyyətə və lazımi istismar yerinə gətirilməsi ilə bağlı birbaşa xərclər daxildir. Torpaq,tikili və avadanlıqlar faydalı istiafdə müddətləri üzrə azalan qalıq dəyəri metodu ilə amortizasiya olunur:

| | |
|---|---|
| Binalar | 7% |
| Maşın və avadanlıqlar | 20% |
| Ofis avandlıqları | 20% |
| Nəqliyyat vasitələri | 25% |

**d) Qeyri-maddi aktivlər**

**İlkin dəyər modeli**

Qeyri-maddi aktivlər ilkin dəyərlə,yığılmış amortizasiya və hər hansı qiymətdəndüşmə üzrə zərər çıxılmaqla uçota alınır. Faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri maddi aktivlər istisna olmaqla bütün digər qeyri-maddi aktivlərin amortizasiyası faydalı istifadə müddətləri üzrə düz xətt metodundan istifadə etməklə Mənfəət və Zərər haqqında Hesabatda əks olunur. Kapitallaşdırılmış qeyri-maddi aktivlər üzrə sonrakı məsrəflər yalnız aid olduğu xüsusi aktivdə əks olunan gələcək iqtisadi səmərəni artırarsa kapitallaşdırılır.

**e)Aktivlərin qiymətdən düşməsi**

Torpaq,tikili və avadanlıqların əgər hadisə və şəraitdəki dəyişikliklər göstərərsə ki,Aktivin balans dəyəri bərpa edilə bilinmir,o zaman qiymətdən düşməsinin, olub-olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Aktivin balans dəyəri onun bərpa olunan dəyərindən çox olarsa,o zaman Mənfəət və Zərər haqqında hesabatda qiymətdəndüşmə üzrə zərər tanınır.

Hər bir hesabat tarixində aktivlər onların qiymətdən düşə biləcək hər hansı göstəricisinin olub-olmamasını müəyyən etmək üçün qiymətləndirilir. Əgər belə göstərici mövcuddursa,həmin aktivin ehtimal edilən bərpa dəyəri müəyyən olunur, Mənfəət və Zərər haqqında hesabatda qiymətdəndüşmə üzrə zərər tanınır.

**f) Vergi qoyma**

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir. Vergitutulan mənfəət Mənfəət və Zərər haqqında hesabat göstərilən uçot mənfəətindən fərqlənir,çünki uçot mənfəətinə gələcək illərdə vergiyə cəlb olunacaq və ya çıxarılacaq gəlir və ya xərc maddələrini,həmçinin heç vaxt vergiyə cəlb olunmayacaq və ya əvəzləşdirilməyəcək maddələr daxildir. Cəmiyyətin cari vergi xərcləri balans hesabatı tarixinə təyin olunmuş vergi dərəcəsi ilə hesablanmışdır.

Təxirə salınmış vergi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergitutulan mənfəətin hesablanması üçün istifadə edilən vergi bazası arasındakı fərq üzrə ödənilməli və ya bərpa edilən vergi məbləğidir və vergi bazası müvafiq vergitutulan mənfəətin hesablanması üçün istifadə edilmişdir. Təxirə salınmış vergi öhdəlikləri ümumilikdə bütün vergitutulan müvəqqəti fərqlər üçün və təxirə salınmış vergi aktivləri isə yalnız çıxarılan müvəqqəti fərqlərlə bağlı gələcəkdə bərpa olunmalı vergiyə cəlb olunan mənfəət səviyysində tanınır. Belə aktiv və öhdəliklər müvəqqəti fərqlər vergi tutulan mənfəətin və uçot mənfəətinə təsir göstərən digər aktiv və öhdəliklərin ilkin tanınmasından yaranarsa tanınmır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir.

Azərbaycan Resepublikası Vergi Məcəlləsinin müvafiq vergi tələblərinə tam olaraq riayət etdiyindən maliyyə heasabatlarında müvəqqəti fərqlər yaranmır.

Azərbaycan Respblikasının Vergi Məcəlləsinə uyğun olaraq Cəmiyyətin fəaliyyətində tətbiq edilən müxtəlif vergi növləri vardır. Bu vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi Mənfəət və Zərər haqqında hesabatda əks olunmuşdur.

**g) Maliyyə icarəsi**

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Mülkiyyət hüququ həm keçə,həmdə keçməyə bilər. İcarənin maliyyə və əməliyyat icarəsi olması icarə müqaviləsinin formasından deyil əməliyyatın məzmunundan asılıdır.

İcarə aşağıdakı şərtlər yerinə yetirildiyi halda,maliyyə icarəsi kimi təsnifləşdirilmişdir.

- ✓ İcarə müqaviləsinin sonunda icarəyə verilmiş aktiv üzrə mülkiyyət hüququ icarəçiyə keçir;

- ✓ İcarəçinin,aktivi ədalətli dəyərindən əhəmiyyətli dərəcə aşağı olacağı gözlənilən qiymətə almaq hüququ həmin hüququn reallaşma tarixinə mövcuddur və icarəçinin həmin hüquqdan istifadə edəcəyini icarə müddətinin əvvəlində əsaslandırılmış şəkildə bildirmək mümkündür;
- ✓ İcarə müddəti, hətta əgər mülkiyyət hüququ ötürülmürsə belə,aktivin faydalı istifadə müddətinin əhəmiyyətli dərəcədə böyük hissəsini təşkil edir.
- ✓ İcarə şərtlərinin qəbul edilməsi tarixində minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyəri, icarəyə verilən aktivin heç olmasa ədalətli dəyərinə bərabərdir;
- ✓ İcarədə olan aktiv elə səciyyəvi xüsusiyyətə malikdir ki,o xüsusi modifikasiya edilmədən,yalnız icarəçi bu aktivdən istifadə edə bilər.

İcarə müqaviləsinin başlanması tarixində Cəmiyyət icarədar kimi maliyyə icarəsini balansda müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məbləğində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onların yarandığı dövrdə xərc kimi tanınır. Maliyyə icarəsinə götürülmüş aktivlər üzrə amortizasiya siyasəti mülkiyyətdə olan torpaq,tikili və avadanlıqların amortizasiyası siyasəti ilə eynidir.

Maliyyə icarəsi ödənişlərinin faiz hissəsi aid olduğu dövrdə mənfəət və zərər haqqında hesabatda əks olunur.

**h)Gəlirin tanınması**

Məhsulların satışından gəlir aşağıdakı şərtlər yerinə yetirilərsə tanına bilər:
I. Müəssisə məhsulların mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risk və mükafatları alıcıya ötürmüşdür;
II.Müəssisə mülkiyyət hüququ ilə bağlı idarəetmədə artıq iştirak etmir və satılmış mallara faktiki nəzarəti saxlamır;
III. Gəlir məbləği düzgün qiymətləndirilə bilinir;
IV.Müəssisəyə əməliyyatla bağlı iqtisadi səmərənin daxil olacağı ehtimal olunur;
V. Əməliyyatla bağlı çəkilmiş və ya çəkilməli xərcləri düzgün qiymətləndirmək mümkündür.

**i) Maliyyə xərcləri**

Maliyyə xərcləri mənfəət və zərər haqqında heasabatda onların yarandığı dövr üzrə tanınır.

**j) Əmək fəaliyyətinin başa çatmasından sonra mükafatlar**

Balans tarixinə əmək fəaliyyətinin başa çatmasına görə mükafatlar hesabat tarixinə işçilərin iş stajına cari və cari əsas əmək haqqına əsasən Azərbaycan Respublikası Əmək qanunvericiliyinə uyğun olaraq hesablanır. İşdən çıxma üzrə müavinətlər yarandığı zaman xərc kimi tanınır.

**k)Qiymətləndirilmiş ehtiyatlar**

Qiymətləndirilmiş ehtiyatlar keçmiş hadisələrin nəticəsi olan öhdəliklərə (hüquqi və konstruktiv) sahib olduqda öhdəliyin yerin yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların tələb olunacağı ehtimal olunduqda və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə öhdəlik kimi tanınır.

**l) Xarici valyutalar**

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında,xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici valyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır.

Balans hesabatı tarixinə xarici valyuta ilə olan monetar maddələr hesabat tarixinə məzənnədən istifadə etməklə yerli valyutaya çevrilir. Məzənnə fərqlərindən yaranan gəlir və xərclər Mənfəət və Zərər haqqında heasabatda əks olunur.

Xarici valyuta ilə olan qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

**m) Maliyyə alətləri**

Maliyyə aktivləri və ya öhdəlikləri mühasibat balansında yalnız maliyyə alətinin müqavilə müddəalarına tərəf olan kimi tanıyır.

İlkin tanınmadan sonra maliyyə aktiləri (i) birbaşa mənfəət və zərərdə ədalətli dəyərlə əks olunan; (ii) müddəti başa çatmış investisyalar; (iii) Kreditlər debitorlar;və (iv) satış üçün sərəncamda olan maliyyə aktivləri kimi təsnifləşdirilir.

Müddəti başa çatmış investisyalar,kreditlər və debitorlarda olduğu kimi qalıq dəyəri ilə əks olunur,effektiv faiz dərəcəsi ilə hesablanmaqla yaranan gəlir mənfəət və zərər haqqında hesabatda tanınır.

Balans tarixində maliyyə aktivinin və maliyyə aktivləri qrupunun qiymətdən düşməsini müəyyən etmək üçün onlar qiymətləndirilir.

Əgər aktivlər amortizasiya edilmiş dəyər ilə uçota alınıbsa,qiymətdəndüşmə,aktivin ilkin dəyəri və maliyyə aktivinin ilkin tanınmada tətbiq edilən həmin effektiv faiz dərəcəsi ilə hesablanmış nəzərdə tutulan gələcək nəğd pul hərəkətinin diskontlaşdırılmış dəyəri arasındakı fərq kimi ölçülür. Lakin, maliyyə aktivlərinin ədalətli dəyərini müəyyən etmək mümkün deyilsə, və onlar ilkin dəyəri ilə uçota alınıbsa, qiymətdəndüşmə zərəri maliyyə aktivini ilkin dəyəri və bu cür maliyyə aktivi üçün cari bazar mənfəət normasında hesablanmış gözlənilən gələcək pul vəsaitlərinin diskontlaşdırılmış dəyəri arasında fərq kimi müəyyən edilir.

Satış üçün mövcud olan maliyyə aktivlərin ədalətli dəyərindəki dəyişikliklərdən yaranan gəlir və xərclərin kapitalda tanınması halları istisna olmaqla gəlir və xərclər mənfəət və zərər haqqında hesabatda tanınır. Qeyd edək ki,silinmə zamanı kapitalda tanınmış gəlir və xərclər bölüşdürülməmiş mənfəətə köçürülür.

Maliyyə öhdəlikləri kimi xarakterizə olunan kreditor borcları ilkin olaraq ədalətli dəyəri ilə, daha sonra isə qalıq dəyəri ilə əks olunurlar.

**n) Nağd pul vəsaitləri və onaların ekvivalentləri**

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması məqsədi ilə nağd pul vəsaitləri və onların ekvivalentlərinə kassa,bank hesablarındakı pullar və hər hansı yetişmə dövrü üç ay və ondan daha az müddətədək olan və istifadəsinə məhdudiyyət qoyulmayan depozit hesabları aid edilir.

## 4. Torpaq,tikili və avadanlıqlar

| | Binalar | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| *İlkin dəyər* | AZN | AZN | AZN | AZN | AZN |
| **1 yanvar 2022-ci il tarixə** | | **113001,26** | **206435,78** | | **319437,04** |
| İl ərzində daxilolmalar | | 2779,92 | 55254,24 | 10500,24 | **68534,40** |
| İl ərzində silinmələr | | 23156,23 | 57647,67 | 2100,05 | **82903,95** |
| İl ərzində təqdim edilmişdir | | | 31099,42 | | **31099,42** |
| Silinmələr üzrə düzəlişlər | | | | | |
| **31 Dekabr 2022-ci il tarixinə** | | **92624,95** | **172942,93** | **8400,19** | **273968,07** |

## 5. Qeyri-maddi aktivlər

| | | | |
|---|---|---|---|
| *İlkin dəyər* | AZN | | |
| **1 yanvar 2022-ci il tarixə** | | | |
| İl ərzində daxilolmalar | - | - | - |
| İl ərzində silinmələr | | | |
| İl ərzində amortizasiya | | | |
| Silinmələr üzrə düzəlişlər | | | |
| **31 Dekabr 2022-ci il tarixə** | - | - | - |

## 6. Torpaq, tikili və avadanlıqlara vəsait qoyuluşu

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Kapital qoyuluşu | - | - |
| Quraşdırılası avadanlıqlar | - | - |
| | - | - |

## 7. Uzunmüddətli maliyyə qoyuluşu

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Uzunmüddətli maliyyə qoyuluşu | | |
| | | |

## 8. Sair aktivlər

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Sair dövriyyə aktivləri | 2713087,19 | 641391,60 |
| | **2713087,19** | **641391,60** |

## 9. Ehtiyatlar

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Mallar | 8376076,80 | 5138655,69 |
| Hazır məhsul | | |
| Sair ehtiyyatlar və məsrəflər | | |
| | **8376076,80** | **5138655,69** |

## 10. Debitor borcları

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Büdcədən alacaq | | |
| Malsatan və podratçılara verilmiş avanslar | | |
| Sosial sığorta və təminat üzrə | | |
| Əməyin ödənişi üzrə | | |
| Sair Debitor borcları | 3505137,23 | 2288115,48 |
| | **3505137,23** | **2288115,48** |

## 11. Pul vəsaitləri və onu ekvivalentləri

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Kassa | | |
| Bank qalıqları | 1621209,28 | 1922470,95 |
| Depozit hesabı | | |
| | **1621209,28** | **1922470,95** |

**12. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)**

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | **AZN** | **AZN** |
| İlin əvvəlində qalıq | 1796424,66 | 1654726,24 |
| İl ərzində daxil olmuşdur | 1822467,67 | 399872,19 |
| İl ərzində silinmişdir | -468812,37 | -258173,77 |
| **İl ərzində mənfəət(zərər)** | **3150079,96** | **1796424,66** |

**13. Kreditor və digər borclar**

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | **AZN** | **AZN** |
| Alınmış avanslar | | |
| Dövlət Sosial Müdafiə Fondu | | |
| Digər öhdəliklər | 1708053,71 | 1914904,55 |
| Bank kreditləri | 5993194,11 | 4016566,50 |
| Büdcəyə olan borclar | 743620,58 | 644954,50 |
| Sair kreditorlar | 1863330,06 | 114742,88 |
| | **10308198,46** | **6691168,43** |

**14. Məqsədli maliyyələşmə**

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | **AZN** | **AZN** |
| İlin əvvəlinə qalıq | - | - |
| İl ərzində alınmışdır | - | - |
| İlin sonuna qalıq | - | - |

**15. Əsas əməliyyat gəliri**

| | 31 Dekabr 2022-ci ıl | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | **AZN** | **AZN** |
| Umumi gəlir | 20724948,61 | |
| | **20724948,61** | |

### 16. Digər əməliyyat gəliri /(zərəri)

| | 31 Dekabr 2022-ci il | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Məzənnə dəyişməsindən gəlir/(zərər) | | |
| Kreditor borclarının silinməsindən | | |
| Sair gəlirlər | | |

### 17. Xərclər

| | 31 Dekabr 2022-ci il | 31 Dekabr 2021-ci il |
|---|---|---|
| | AZN | AZN |
| Əmək haqqı və mükafatlar | 531319,95 | |
| Sosial sığorta üzrə xərclər | 102102,85 | |
| İcarə haqqı | 151777,49 | |
| Malın dəyəri | 14819558,90 | |
| Enerji xərci | 6021,69 | |
| Ezamiyyə xərcləri | 52460,94 | |
| Təmir xərcləri | | |
| Yanacaq xərcləri | 66822,61 | |
| Reklam xərcləri | 199096,29 | |
| Rabitə xərcləri | | |
| Faiz xərcləri | 518855,20 | |
| Sığorta xərclər | 4748,15 | |
| Digər xərclər | | |
| Bilavasitə xərclər | 274023,07 | |
| Bank xərclər | 94703,38 | |
| Amortizasiya xərcləri | 114003,37 | |
| Vergi xərcləri | 2967,03 | |
| | **16938460,92** | |

### 18.Hesabat tarixindən sonra baş vermiş hadisələr

***31 dekabr 2022-ci il tarixinə maliyyə hesabatlarında borc qalıqları aşağıdakı kimi olmuşdur.***

***Vergilər üzrə.*** ***31 dekabr 2022-ci il tarixinə cəmiyyətin vergilər üzrə kreditor borcu 743620,58 manat olub.***

***Sosial sığorta ayırmaları üzrə.*** ***31dekabr 2022-ci il tarixinə cəmiyyətin sosial sığorta üzrə kreditor borcu 0,00 manat olub.***

***Əmək haqqı üzrə.*** ***31 dekabr 2022-ci il tarixinə cəmiyyətin əmək haqqı üzrə işçi heyətinə kreditor borcu 0,00 manat olub.***

**Bakı şəhəri** **31.01.2023 – cü il**

# TƏHVİL-QƏBUL AKTI

***Biz, aşağıda imza edənlər, "İcraçı" "ECONOMİC CHA" MMC-nin Direktoru Cəfərova Sevda Teymur qızı şəxsində bir tərəfdən və "Sifarişçi" "MERANO-BAKU " QSC şəxsində Quliyev Bəxtiyar Rasim oğlu digər tərəfdən bu aktı tərtib edirik ondan ötəri ki, "İcraçı" tərəfindən tərtib edilmiş Akt təhvil verilir " MERANO-BAKU " QSC-yə .***

***16.01.2023 – cü il tarixli ÇA №01 saylı müqavilənin şərtlərinə uyğun olaraq audit aparılmışdır. Auditin yekununda aşağıdakı sənədlər təhvil verilir .***

***Auditor Müqaviləsi 4 səhifə***
***Auditor hesabatı 01 dəst.***
***Auditor Rəyi 2 səhifə***

***Auditin nəticəsinə görə "Sifarişçi"-yə auditorun Hesabat-Rəyi təhvil verilmişdir.***

**Təhvil Verdi:**

**"İcraçı"** ____________

**Təhvil aldı:**

**"Sifarişçi"** ____________

## *8 saylı Ərazi Vergilər İdarəsi*

*Qurumun adı* "MERANO-BAKU" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

*Qeydiyyata alındığı tarix* 13.01.2016

*Dövlət qeydiyyat № (VÖEN)* 3901037901

*Təşkilati-hüquqi forması* Qapalı səhmdar cəmiyyəti

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1200, BEYLƏQAN RAYONU, BEYLƏQAN Ş, BABƏK, ev 10

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 2,010.00 manat

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*
ƏSGƏROV NAMİQ XANIŞ OĞLU - 100 %

*Qanuni təmsilçi* QULİYEV BƏXTİYAR RASİM OĞLU

*Çıxarışın verildiyi tarix və №* 21.01.2022, 2208020018160200

Adilov Z.S.